DOI: 10.36719/AEM/2007-2020/54/165-168

**Vəfa Nizami qızı Həsənova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
vefa.hesenova.90@bk.ru

# AZƏRBAYCANIN MƏDƏNİ İRSİNDƏ ÇİY KƏRPİCDƏN HÖRÜLMÜŞ DAİRƏVİ VƏ DÜZBUCAQLI TİKİLİLƏRİN YERİ

***Açar sözlər**: çiy kərpic memarlığı, dairəvi və düzbucaqlı evlər, pasportlaşma, mühafizə, bərpa*
***Key words:** architecture of raw bricks, round and rectangular houses, passportization, security, restoration*
***Ключевые слова:** архитектура из необработанного кирпича, круглые и прямоугольные дома, паспортизация, охрана, реставрация*

Azərbaycan qədim mədəniyyət ölkəsidir. Onun mənşəyinə dair olan suallara uzaq keçmişdən olan izlərdə, bu günə qədər yaşayan memarlıq abidələri, qaya şəkilləri və arxeoloji qazıntıların bizə qazandırdığı artefaktlarda cavab tapa bilərik. Son illərdə Azərbaycanda arxeoloqların elmi kəşfləri bu bölgədə yaşayan qədim insanların orjinal tikinti mədəniyyətinin yaranma və inkişaf etmə yoluna yenidən baxmağa izin verir. Azərbaycanın qədim mədəni irsinin mütərəqqi xətt üzrə inkişafında qonşu Şərq ölkələrinin yüksək mədəniyyətləri və svilizasiyaları ilə yaradıcı qarşılıqlı təsir amili də xüsusi rol oynamışdı. Yaxın Şərqə və Xəzəryanı bölgələrə inteqrasiya şəraitində Azərbaycan ərazisi vahid mədəni məkanın tərkib hissəsinə çevrilmişdi. Əkinçilik və maldarlığın inkişafı üçün əlverişli şəraitə malik olan Azərbaycan ərazisinə hətta Ön Asiyanın mədəni mərkəzlərindən, o cümlədən, Mesopotamiyadan əkinçi tayfaların köçü başlanmışdı. Son illərdə Azərbaycanın bir sıra bölgələrində Übeyd və Uruk mədəniyyətlərinə aid məişət-təsərrüfat və qəbir abidələrinin üzə çıxarılması buna tutarlı sübutdur. Azərbaycan ərazisində maddi mədəniyyət sahəsindəki irs öz yeni təcəssümünü əkinçilik və maldarlıq iqtisadiyyatının tam təşəkkülündə, ilk metalın mənimsənilməsində və geniş istehsalında, dulusçuluq və toxuculuq sənət sahələrinin yüksəlişində, çiy kərpic memarlığının meydana çıxmasında və geniş yayılmasında, iqtisadi-mədəni əlaqələrin genişlənməsində, inteqrasiya meyllərinin artmasında və sairədə tapmışdı.

Azərbaycan ərazisində dairəvi tikinti qalıqları ilk dəfə Naxçıvan yaxınlığındakı Kültəpə abidəsində aşkar edilmişdir. Burada onların ən qədim nümunələri e.ə. VI-IV minilliklərə – eneolit (mis) dövrünə aiddir. Sonralar belə tikinti qalıqları Qazax rayonu ərazisindəki Şomutəpə, Töyrətəpə, Quruçay və Köndələnçay vadisindəki Qaraköpəktəpə, Günəştəpə kimi qədim yaşayış yerlərində, Mil-Qarabağ, Muğan düzlərindəki abidələrdə də zahirə çıxarılmışdır. Bu binaların tikintisində vaxtilə müxtəlif inşaat materiallarından istifadə olunmuşdur. Əksər hallarda onların bünövrə hissəsi daşdan, divarları isə çiy kərpicdən və ya möhrədən tikilmişdi. Vaxtı ilə belə tikintilərin kərpiclərdən hörülmüş gümbəzşəkilli örtüyü olmuşdu (2; 8; 9).

Kiçik ölçülü belə binalardan həmin dövrdə bir qayda olaraq yaşayış üçün istifadə edilmişdi. Lakin maraqlı cəhət ondan ibarətdir ki, heç bir yerdə Kəlbəcərdə yeni aşkar edilmiş tikinti qədər möhtəşəm divarlı tikintiyə rast gəlinməmişdir. Güman etmək mümkündür ki, bu tikinti qüdrətli bir tayfa ittifaqına məxsus ictimai bina olmuşdur. Əmin-amanlıq dövründə burada tayfanın dini və ictimai mərasimləri keçirilmiş, təhlükə zamanı isə o alınmaz istehkama çevrilmişdi.

Qədim memarlıq sənətində kərpic hörgüsü üsulu müxtəlifdir. Bəzən kərpici bir cərgə, uzununa düzür, divar boyu hər iki tərəfi üzdən qalın gil təbəqəsi ilə suvatırdılar. Bəzən isə birinci cərgədə kərpiclər cüt-cüt divar boyu uzununa düzülür, ikinci cərgədə isə birinciyə nisbətən bucaq altında qoyulurdu. Bucaq altında qoyulan kərpicin hər biri əvvəlki cərgədən 2-3 sm irəli çıxıb, yolkaşəkilli hörgü əmələ gətirirdi. Divarların qalınlığı 10-20 sm və ya 50-60 sm arasında dəyişirdi. Dairəvi binaların diametri 3,5 sm-ə qədər olurdu(1, s. 23).

Çiy kərpic açıq havada qurudulan, bişməmiş, gil və doğranmış saman, kətan və ya çətənə kolunun lifinin qatışığından ibarət olan tikinti materialı kimi insanların həyatında geniş yer tutmuşdur. Adi kərpicin hazırlanma qaydası ilə çiy kərpicin hazırlanması eyni olsa da, onların ölçüləri daha böyük olurdu. Uzunluğu 8-9, eni 4-5 və qalınlığı 2,5-3 sm ola bilərdi. Göründüyü kimi, öz ölçülərinə görə adi kərpicdən 3-5 dəfə böyük olan belə ağır material adətən, tikinti yerində hazırlanırdı. Adətən orta keyfiyyətli gildən hazırlanırdı, çünki daha yağlı və qalın kərpicin bayır hissəsi tez, içərisi isə daha gec quruya bilərdi ki, bu da sonradan onun çatlamasına səbəb ola bilərdi. Qalın çiy çərpicin bütün tərkibindəki komponentlərin tam qarıması və bir tamlıq təşkil etməsi vacib idi. Hazır gil azacıq su ilə yüngülcə isladılır, beldən rahat sürüşüb düşənə qədər qarışdırılırdı. Təxminən 1000 ədəd saman qatışıqlı kərpic hazırlanması üçün 18 kub arşın gil, 2-3 dərz saman, yarım həsir lif lazım olurdu (11, s.127). Kərpic üçün xüsusi lövhənin üstündə forma hazırlanırdı və bu forma nisbətən boyük oludu, çünki o quruduqdan sonra ölçüləri nisbətən kiçilirdi. Belə formadan kərpic

adətən böyrü üstə çıxarılırdı. Hazırlanmış gilin içərisinə doğranmış saman qatılırdı və əsasən ayaqla, bəzən isə heyvanların köməyi ilə yoğrulurdu. Bu zaman yoğurulan kütləyə kiçik ölçülü daşlar və digər tikinti materialı da qatmaq olurdu. Hazır məhsulu formaya əlavə edib, kənarlarının artıq hissəsini təmizləyirdilər. Əvvəlcədən 5 dişli dəmir çəngəl hazırlanır və kərpicin üzərində 5 yerdən deşik açırdılar, belə oyuqlar onun qurumasını sürətləndirir və daha möhkəm olmasını təmin edirdi (1; 6). Təxminən 4 gün sonra artıq onları qurumaq üçün kölgəli bir yerə elə toplayırdılar ki, hava hərtərəfdən onu quruda bilsin. Kərpicin içərisi ilə bayır hissəsinin rəngi eyni olduqda, onun tam quruduğuna əmin olmaq mümkün idi. Bəzi bölgələrdə saman əvəzinə qatırquyruğu və ağ və ya torf mamırından da istifadə olunur, bəzən isə onun bir müddət qışda şaxtada donması üçün saxlayırdılar .

Ciy kərpicin əskik cəhətləri tikilinin o qdər də uzunömürlü olamaması ilə bağlıdır. Bəzən belə tikililər üçün 25 ildən artıq müddət yararsız hesab olunurdu. Eyni zamanda onlar rütubət və şaxtaya qarşı davamsız, müxtəlif həşəratların yaşaması, artması üçün əlverişli olduğundan, ondan daha çox mülayim iqlimdə istifadə olunurdu. Qeyd etmək lazımdır ki, çiy kərpicin müsbət cəhətləri də olmuşdur. Uzun müddət istifadə olunması daha asan, rahat əldə edilən, ekoloji cəhətdən təmiz, odadavamlı tərkibi, eyni zamanda, yaxşı istilik və səs izoləedici xarakteri ilə bağlı olmuşdur (1; 6; 10).

Daha davamlı olması üşün onun tərkibinə peyin, saman, ağac yoqarı əlavə etməm mümkün idi. Saman tərkibli çiy kərpic istiliktənzimləyici keyfiyyətə malik olurdu. Onun quruduqdan sonra sıxılmasının qarşısını almaq üçün çınqıl, qum, saxsı parçaları və s. əlavə edirdilər. Quruma prosesinə köməklik və suyadavamlılıq üçün əhəng və ya sement (müasir dövrdə), plastiklik məqsədilə peyin şirəsi qarışdırılırdı. Müasir dövrdə tikinti memarlıq işlərində təsərrüfat tikililərinin inşası üçün, kiçik fasadlarad üzlük kimi istifadə olunur. Divarın daxili hissəsində ondan rahat istifadə etmək mümkündür.

Mil, Qarabağ və Muğanın qədim yaşayış yerləri, eləcə də Naxçıvan ərazisindəki Kültəpə abidəsi eneolit mədəniyyətinin nisbətən inkişaf mərhələsini əks etdirirlər. Göstərilən qədim yaşayış yerlərində boyalı qabların meydana çıxması, mislə tanışlıq və ondan geniş istifadə, şübhəsiz, eneolit mədəniyyətinin yeni inkişafının təzahürü olmuşdu. Bu cəhətdən Azərbaycanın cənub qrupuna daxil olan eneolit abidələri Ön Asiya abidələri ilə uzlaşırlar. Bununla belə, Azərbaycanın istər birinci, istərsə də ikinçi qrupa daxil olan bütün qədim abidələri ümumi eneolit dövrü və mədəniyyəti üçün səciyyəvi olan bir çox xüsusiyyətləri aydın şəgildə buruzə verirlər. Göründüyü kimi, Azərbaycan ərazisindəki eneolit mədəyatinə məxsus yaşayış yerləri, bir qayda olaraq, dağətəyi və düzən yerlərdəki çay sahillərində və ya qədim quru çay vadilərində yerləşmişdir. Belə yaşayış yerlərinə, bir qayda olaraq, möhrədən və çiy kərpicdən tigilmiş dairəvi, müəyyən hallarda isə dördkünc evlər xasdır. Bütün bu qədim yaşayış yerlərində təsərrüfatın əsasını əkinçilik təşkil etmiş və həmin təsərrüfatda dənli bitgilər istehsalı üstün yer tutmuşdur. Əkinçiliyin əsas forması isə toxa əkinçiliyindən ibarət olmuşdur. Eneolit dövründə yerli qəbilə icmalarının iqtisadi həyatında əkinçiliklə yanaşı maldarlıq da əhəmiyyətli yer tutmuşdur. Lakin bu qədim təsərrüfat sahəsi öz inkişaf səviyyəsinə körə hələ məhdud olmuş və oturaq xüsusiyyət daşımışdı. Naxçıvanda I Kültəpənin eneolit təbəqəsində üzə çıxarılan tikinti qalıqlarının əksəriyyəti dairəvi evlərə aiddir. Bunlardan başqa küncləri dairələşdirilmiş dördkünc tikinti qalıqları da qeydə alınmışdır. Ümumilikdə Kültəpənin eneolit təbəqəsində 14 tikiiti layı üzə çıxarılmışdır. Bütün tikintilərdə gil möhrədən, çiy kərpiclərdən və çay daşlarından istifadə edilmişdir. Çay daşı tikintilərin ancaq özül hissəsində işlədilmişdir. Tədqiqatçı O.H.Həbibullayevin fikrincə, dairəvi tikintilər yaşayış üçün, dördkünc tikintilər isə təsərrüfat üçün inşa edilmişdir. Darəvi tikintilərin diametri 6-7 metrdir. Onların divarlarının qalınlıqı 35-55 sm.-dir (3, 237). Belə evlər müəyyən hallarda arakəsmə divarlarla hissələrə bölünmüşdür. Onların döşəməsi və divarları gillə suvanmışdır. hər bir evin (içərisində daşlardan və ya gildən düzəldilmiş ocat yerləri tapılmışdır. Təsərrüfat tikintiləri yaşayış evlərinə nisbətən kiçik ölçülüdür. Onların uzuiluqu 4 m.-dən artıq deyildir. Qazıntılar zamanı yaşayış evlərinin içərisində və çöl hissəsində çoxlu təsərrüfat quyularına da rast gəlinmişdir. Baba-Dərviş abidəsindən qazıntılar zamanı 80-95 sm. dərinlikdə eneolit dövrünə aid dairəvi qazma şəkilli 4 yaşayış evi aşkar edilmişdir (5, s.21). Evlərin diametri dairəvi evlərin ölçüsünə yaxın olub 3-4 m. arasındadır. Onların içərisini dolduran mədəni təbəqədən eneolit gil qablarının xüsusiyyətlərini daşıyan gil mə'mulatı, eləcə də daş və sümükdən hazırlanmış alətlər tapılmışdır.

Töyrətəpə ilk dəfə 1956-cı ildə qeydə alınmış, M.M.Hüseynov tərəfindən, 1961-ci ildə isə C.N.Rüstəmov tərəfindən tədqiq edilməyə başlanmışdır. Qazıntılar zamanı təpədə eneolit dövrünə aid 4 m.-dən artıq mədəni təbəqənin olması aşkara çıxarılmışdır. həmin təbəqə qeyd olunan dövrün bir neçə tikinti layından ibarətdir. Bütün laylarda Şomutəpə qədim yaşayış yerində olduğu kimi dairəvi tikinti qalıqlarına təsadüf edilmişdir. Onların divarları çiy kərpicdən inşa edilmişdir. Kərpiclər samanlı gildən düzəldilmişdir. Tikinti zamanı kərpiclər bir-birinə gil palçıqla bərkidilmişdir. Yaşayış evlərinnn döşəmələri və divarları da gillə suvanmışdır. Töyrətəpədə aşkar edilən dairəvi evlər öz ölçülərinə körə də Şomutəpə tikintiləri ilə eynidir(4; 8). Buradan da qum və saman qatışıqlı gildən əldə düzəldilmiş bəsit formalı qab nümunələri tapılmışdır. Əldə

edilən əmək alətləri daş və sümükdən hazırlanmış və əsasən, əkinçilik təsərrüfatı ilə bağlıdır. Onların içərisində dən daşları, oraq dişləri, toxa nümunələri kimi əmək alətləri də vardır.

İlanlıtəpə qədim yaşayış yeri Ağdam rayonunun Baş Qərvənd kəndi yaxınlıqında kiçik bir təpədən ibarətdir. Təpənin diametri 40 m., hündürlüyü 1,5 m.-dir. Abidə 1967-ci ildə İ.H.Nərimanov tərəfindən qeydə alınmışdır. Qazıntılar zamanı İlanlıtəpənin mədəni təbəqəsinin bilavasitə eneolit dövrünə aid olması aşkara çıxarıdmışdır. Həmin mədəni təbəqədə çiy kərpicdən tigilmiş yaşayış evlərinin, eləcə də təsərrüfat tikintilərinin qalıqları tapılmışdır. Bütün tikintilər dördbucaqlı, dairəvi və yarımdairəvidir. Ayrı-ayrı evlərin divarları və döşəmələrində qırmızı boya izlərinə rast kəlinmişdir (8, s.219-223). Yaşayış yerindən tapılan gil qablar əldə hazırlanmışdır. Gilin tərkibinə saman qatılmışdır. Təəsüf ki, abidələrimizin böyük bir hissəsi erməni işğalı altında olduğundan, məədəni irsimizin çiy kərpic memarlığı daşıyıcısı kimi onları mühafizə etmək, öyrənmək kimi imkanımız yoxdur.

## Nəticə

Məqaləmizin mövzusu məhz çiy kərpic memarlığı nümunələrinin diqqət mərkəzinə gətirilməsi yönümünə xidmət edir. Qədim dövr tariximizin istər sənətşünaslıq, istər arxeoloji, istər arxitektur istiqamətdə öyrənilməsi, gənc nəslə çatdırılması, dünya səviyyəsində təbliği xalqımızın minillik tarixini işıqlandırmağa imkan verə bilər. Bununla bağlı olaraq, bir sıra təkliflər vermək mümkündür: İlk növbədə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Memarlıq və İnşaat Universiteti, Mədəniyyət və İncəsənət Universiteti və digər aidiyyəti qurumlar tədqiqatlarını uzlaşdırılmış şəkildə aparmaq üçün Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəzarəti altında ixtisaslı kadrlardan ibarət “Xüsusi Komissiya” yarada bilər; Bu Komissiya çiy kərpic memarlığı xüsusiyyətləri daşıyan abidələrin sistemli şəkildə qeydə alınması (pasportlaşdırılması), mövcud vəziyyəti ilə bağlı hesabat hazırlayıb, bərpaya ehtiyacı olan abidələrin siyahısını tərtib edə bilər; Komissiya daxilində “bərpaçı-restavratorlar”ın aktiv iştirakı ilə çiy kərpic tikililərin ilkin forması bərpa olunduqdan sonra “Açıq səma altında Muzey” tipli komplekslər yaratmaq və ya xüsusi laboratoriyalar təçkil etməm mümkündür; Yerlərdə çiy kərpic emalatxanalı yaradaraq, qədim ənənəni gənc nəslə öyrətmək və bu irsi yaşatmaq mümkündür və s.

Bu istiqamətli çoxsaylı təkliflər vermək mümkündür. Sadəcə mədəni irsimizin qədim izlərini özündə daşıyan, çoxları üçün “sadə, ucuz, keyfiyyətsiz” hesab olunan çiy kərpic Azərbaycan tarixinin böyük bir mərhələsində əcdadlarımızın yaşayış evlərinin, müdafiə hasarlarının, qalaların əsasını təşkil etməklə, əslində milli varlığımızın bu günə ötürülməsində əsas rol oynamışdır.

## Ədəbiyyat

1. Məmmədzadə K.M. Azərbaycanda inşaat sənəti. Bakı, Elm, 1978, 210 s.
2. Nərimanov İ.Q. Gəncəçay rayonunun arxeoloji abidələri. Bakı: Elm, 1958, 142 s.
3. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванский АССР. Баку: Элм, 1982, 316 с.
4. Асланов Г.М., Кашкай С.М. Погребения некрополья Мунджуклутепе // Советская археология, 1991, № 3, с. 221-223.
5. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку: Азернешр, 1986, 311 с.
6. Джавахишвили А.И. - Строительное дело и архитектура поселений Южного Кавказа V-III тыс. до н.э. Тбилиси, 1973
8. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Nafta-Press, 2008, 304 с.
9. Мелларт Дж. Древнейшие цивилизации Ближнего Востока. Москва,Наука, 1982, с.
10. Сеидов А.Г. Памятники Куро-Аракcской культуры Нахичевани. Баку, Билик, 1993, с. 164
11. Пономарев А.Б., Е.А. Шаламова История и методология науки и производства в области строительства Издательство Пермского национального исследовательского политехнического университета 2014, 198 s.

## The place of Round and recdangular raw brick houses in the cultural heritage of Azerbaijan

**Summary**

This article is intended to draw attention to examples of raw brick architecture, as well as to explain very clearly the technology of making raw bricks and the importance of this material. Restoration and protection of round and rectangular houses in Azerbaijan that have preserved mysterious traces of the early construction culture and the need for urgent actions to pass it on to future generations. Measures are proposed in this direction-certification of brick architecture, the creation of "open-air museums", as well as the creation of brick workshops, etc.

**Место занимающее в Азербайджанском культурном наследии круглых и прямоугольных построек из сырого кирпича**

**Резюме**

Данная статья призвана привлечь внимание к примерам архитектуры сырцового кирпича, а также очень четко объяснить технологию изготовления сырцового кирпича и важность этого материала. Реставрация и охрана круглых и прямоугольных домов в Азербайджане, сохранивших таинственные следы ранней строительной культуры и необходимость срочных действий, чтобы передать его будущим поколениям. Предлагаются меры в этом направлении-паспортизация кирпичной архитектуры, создание "музеев под открытым небом", а также создание кирпичных мастерских и др.

**Rəyçi: dos.X.Dadaşov**

Göndərilib: 19.05.2020 Qəbul edilib: 22.05.2020